# Könüllülər yurdu—Azərbaycan

14-15 sentyabr tarixlərində "ASAN könüllüləri" Təşkilatı Qəbələ şəhərində könüllülük fəaliyyətinin təbliği məqsədilə "Könüllülər Yurdu—Azərbaycan" layihəsini keçirib. Açılış mərasimində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova və Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov iştirak edib və gənclərə uğurlar arzulayıblar.





Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə keçirilən layihəyə Ağdam, Yevlax və Bərdə rayonlarından ümumilikdə 60 gənc iştirak edib. İlk növbədə iştirakçılara "Şəxsi inkişaf", "Könüllülüyün fəlsəfəsi və tarixi", "ASAN könüllüləri" təşkilatı, "ASAN school" könüllülük məktəbi və "ASAN kadr", "Dövlət orqanlarının şəxsi inkişaf üçün yaratdığı imkanlar" mövzularında müxtəlif təlimlər keçirilib. Daha sonra layihə iştirakçıları Gəncə "ASAN xidmət" mərkəzi ilə tanış olub, 100 ailəyə könüllülük fəaliyyəti və "ASAN xidmət"in göstərdiyi xidmətlər ilə bağlı maarifləndirici bukletlər (məlumat vərəqləri) paylayıblar.

Layihə çərçivəsində gənclərə könüllülük fəaliyyətinin praktiki cəhətdən öyrədilməsi məqsədilə şəhərin mərkəzində sosial aksiyanın keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Bakı, Sumqayıt şəhərləri ilə yanaşı 6 regionu əhatə edəcək "Könüllülər yurdu-Azərbaycan" layihəsinin əsas məqsədi könüllü fəaliyyətini gənclər arasında təbliğ etmək və bununla da sosial-ictimai sahədə regionda yaşayan gənclərin rolunun artırılmasına nail olmaqdan ibarətdir. Onuda qeyd edək ki, layihə 600 gənci əhatə edəcək və 50.000 ailə "ASAN xidmət"in göstərdiyi xidmət ilə bağlı maarifləndiriləcək.

**«Qəbələ».**

# Müəllimlərin təlim-metodiki toplanışı keçirilmişdir



Qəbələ rayonunun mülki müdafiə planına uyğun olaraq Şamaxı Regional Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin təşkilatçılığı ilə ümumtəhsil məktəbləri müəllimlərinin təlim-metodiki toplanışı keçirilmişdir. Qəbələ Mədəniyyət Mərkəzində keçirilən toplanışda təhsil ocaqlarının II, V, VI siniflərinin rəhbərləri, rayon icra hakimiyyəti və təhsil şöbəsinin nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Qəbələ Rayon Təhsil Şöbəsi müdirinin müavini İxtiyar Hüseynov açmışdır.



Sonra Şamaxı Regional FH və MM Şöbəsinin rəisi, polkovnik-leytenant Faiq Əhədov və şöbənin əməkdaşı, leytenant Asim Atakişiyev məktəblərdə mülki müdafiə dərslərinin tədrisi metodikası mövzusunda mühazirələr oxumuşlar. Sonda tədbir iştirakçılarının suallarına cavab verilmiş, fikir mübadiləsi aparılmışdır.

**«Qəbələ».**

## Üzeyir Hacıbəyli–130

# 18 sentyabr "Milli Musiqi Gününüz Mübarək"

18 sentyabr "Üzeyir musiqi günüdür". Bu mötəbər gün 1995-ci ildən Ümummilli lider Heydər Əliyev tərəfindən "Üzeyir Musiqi günü" kimi rəsmiləşdirilib. Bu gün Azərbaycan musiqisi əsl çiçəklənmə dövrünü yaşayır. Ölkəmizdə davamlı olaraq keçirilən musiqi festivalları, müxtəlif müsabiqələr bütövlükdə Azərbaycan mədəniyyətinin, Azərbaycan musiqisinin daha geniş təbliğinə xidmət edir.

Elə bu səbəbdən Qəbələ Rayon Mərkəzi Kitabxanasında Üzeyir Hacıbəylinin 130 illik yubileyi və 18 sentyabr Milli Musiqi günü münasibətilə tədbir keçirilmişdir. Həmçinin milli musiqimizin banisi Üzeyir Hacıbəylinin həyat yolunu əks elətdirən və "Milli Musiqi Gününüz Mübarək" başlığı altında sərgi yaradılmışdır. Sərgini yaratmaqda əsas məqsəd kitabxanamıza gələn oxucuların maarifləndirilməsi və azyaşlı oxucuların Üzeyir Hacıbəyli yaradıcılığı və milli musiqimiz ilə yaxından tanış olmalarıdır. Qeyd edim ki, sərgidə Üzeyir Hacıbəyli yaradıcılığını əks etdirən Üzeyir Hacıbəylinin "Seçilmiş əsərləri", biblioqrafik məlumatlar,



"Üzeyir Hacıbəyli ensiklopediyası", Milli musiqimizin incilərindən "Azərbaycan xalq mahnıları", "Azərbaycan bəstəkarlarının əsərləri", Tofiq Bakıxanov "Dügah", "Şahnaz", Niyazi "Rast" Fərhad Bədəlbəyli "Anamız Azərbaycan", Aida Tağızadə "XX əsr Azərbaycan musiqisi", Surxay Əlibəyli "Qədir Rüstəmov-Qeyibdən gələn səs", Mustafa Çəmənli "Leyi Məcnun 100 il səhnədə", Səadət Təhmirazqızı "Fikrət Əmirov" və Qara Qarayev yaradıcılığından seçilmiş əsərlər, biblioqrafik məlumatlar kitabxanaya gələn oxucuların nəzərinə çatdırılır. Sərgi oxucuların böyük rəğbətini qazanmışdır.

Həqiqətən də Üzeyir Hacıbəyli yaradıcılığına biganə qalmaq mümkün deyildir. O, Azərbaycanda peşəkar musiqinin banuisidir, bəstəkarlıq məktəbinin, musiqili komediya janrının yaradıcısıdır. Şərqdə operanın, operettanın əsasını qoyub, dövlət xorunu, simfonik orkestri yaradıb, dünya musiqi xəzinəsini ölümsüz əsərlərlə zənginləşdirib. Üzeyir Hacıbəylinin təleyində ən möhtəşəm səhifələrdən biri də odur ki, bəstəkar Azərbaycan Dövlət Himninin müəllifidir. Bu gün Azərbaycan bayrağı həmin himnin sədaları altında dünyanın mötəbər salonlarında ucalır, səhərimiz, həmçinin bütün tədbirlərimiz bu himnin sədaları ilə başlayır.

**Ülkər QƏDİROVA,**
**MKS-nin operatoru.**

# Milli dəyərlərimiz

14 sentyabr 2015-ci il tarixində Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində "Milli dəyərlərimiz" mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Dəyirmi masada söhbət zamanı xalqımızın tarixən qədim olduğu, uzun bir zaman ərzində yadellilərin işğalından alnıaçıq, üzüağ çıxdığı, əsrlərin sınağından şərəflə keçdiyini bir daha xatırlanmış, gələcəyə inam və ümidlə getdiyi bildirilmişdir. Xalqımızın bütün maddi və mənəvi sərvətlərimizi qoruyan, təbliğ edən muzeyimiz qədim hər nə varsa ona böyük diqqət və qayğı ilə yanaşır. Çünki bu milli dəyərlərimiz xalqımızın necə tarix yaşamasını bir daha sübut edir. Muzeyin fondunda olan bir neçə qədim eksponata baxış keçirilmiş və gələcək nəsillər üçün də qorunub saxlanılması üçün geniş tədbirlər planı nəzərdə tutulmuşdur. İndi bizim üçün tarixə çevrilən bu qədim eksponatlar milli dəyərlərimiz kimi qiymətlidir. Muzeyin direktoru Xalis Məmmədov dəyirmi masa iştirakçılarına bu gün əvəzsiz olan bir neçə eksponat haqqında geniş məlumat verdi.

**«Qəbələ».**